# ŞUŞA SİMFONİYASI

## *Xüsusi müxbirin ümumi xatirələri...*

***Zamanında yalnız Şuşada bitdiyi deyilən xarı bülbüllər gül ürəklərinə damıbmış kimi birdən-birə ölkəmizin neçə-neçə bölgəsindən boy verdilər - dövranın gərdişindən bu-ralara üz tutmuş şuşalıları qəribsəməyə qoymamaq üçün, günlərin birində həmyerlilərinə qoşulub doğma dağlara qayıt-maq üçün...***

***Və günlərin həmin o xoş günündə hələlik 28 il yaşı olan cüdalığa son qoyulacaq, Şuşa-nın başı dumanlı dağlarında, bu yerlərin qırmızı koftalı, yaşıl tumanlı gözəllərinin dilində-könlündə "Qarabağ şikəskəsi", "Xarı bülbül" aşıb-daşacaq, yurdu el-el, ev-ev gəzib dola-şacaq, şəhid məzarlarını sara-caq, qırılmış qəlblərə məlhəm olacaq...***






Yazarların, xüsusən də şairlərin siyasətdən baş çıxarmamaları, siyasi proseslərin dinamikasına laqeyd olmaları və bununla bağlı heç bir proqnoz verə bilməmələri böyük yalan, bir çox hallarda isə adəti poetik aləmdən qoparılıb, narahat edilməmək üçün elə onların özləri tərəfindən düşünülmüş görüntü, dekordur. Əslində isə onların mütləq əksəriyyəti yaşadığı ölkənin və hətta dünyanın nəbzini tutmağı yaxşı bacarır, öz aralarında siyasi atmosferi ən mahir şərhçilərdən heç də pis təhlil eləmirlər.

O da belə şairlərdən idi. 60-cı illər Azərbaycan ədəbi nəslinin əyalətdə qalmalı olmuş istedadlı nümayəndəsi, həmkarım şair və jurnalist Murad Qudyalçaylı. Zəngin ədəbi "sandığı" vardı. Hərdən sakit-sakit Bakıya gedib-gəlir, bu səfərlərin nəticəsi ya qəzet-jurnallarda çıxan şeir və poemalar, ya da yeni və gözəl kitab olurdu. Az qala paytaxtdakı hər nəşriyyatın planında kitabı vardı. Onu tanıyır, özünəməxsus poetik təbini yüksək dəyərləndirir və bir qayda olaraq istəyini geri çevirmirdilər. Özü isə həmişə qürurla deyirdi ki, mənə "Uğurlu yol"u Rəsul Rzanın özü yazıb!..

Səksəninci illərin sonunun məlum təlatümləri ürəkləri parçalamağa üz qoyanda o nədənsə daha çox Şuşanı düşünürdü. Hərdən-hərdən həmkarları arasında, dar çərçivədə hadisələrə siyasi qiymət də verir, öngörülərini səsləndirirdi. Sonradan bunların həyatda özünü nə qədər doğrultduğunu elə sonrakı onilləri yaşayanlar daha yaxşı bilər, amma o zaman, Qarabağ düyününün lap başında şair və jurnalist Murad Qudyalçaylı-Arzumanov özünün miyanə iş otağında əyləşib ta Moskvadan soraq verirdi: "Bunlar, Pribaltikadakı, bizdəki bu yeni cəbhələşmələr ki var, hamısı Qorbaçovun işləklərıdir"; "Biz çox maraqlı dövrdə yaşayırıq, amma içində olduğumuzdan bunun fərqinə varmırıq..." və s.

Bu unikal dağ şəhərinin acı taleyini şair ürəyi ilə yaşadığındandır ki, Şuşa dərdini kağıza əmanət eləmiş, nəticədə onun qələminə xas sanballı "Şuşa simfoniyası" poeması ərsəyə gəlmişdi. Və nə yazıq ki, həmin əsər də hələlik itirdiyimiz Şuşanın qəmli taleyini yaşamaqdadır. Lakin bu barədə bir qədər sonra. İndiliksə babalarımızın xoş niyyəti və əzmi,



Allahın da rizası ilə sanki zümrüd dağların bağrından yer üzünə zühur etmiş Şuşanın – bu musiqi, elm və ədəbiyyat beşiyinin bitməmiş simfoniyasını başdan dinləyək... Axı Şuşa yaranışı, təşəkkülü, coşqulu inkişafı və indilik davam etməkdə olan məlaləti ilə doğrudan da klassik simfoniya ömrü yaşayıb və yaşayır: onun özünəməxsus şən Alleqro-su, Menuetto-su, Antante-si olub və nə yaxşı ki, becid-yüyrək Presto-su hələ istiqbaldadır. Əslində şuşalı olan və olmayan hər bir Şuşasevəri ümidlə yaşadan da elə bu Presto vüsalıdır. Axı Presto-suz heç bir simfoniya bitmir... Axı Şuşanı sevməyən azərbaycanlı yoxdur...

* * *

## ŞUŞA MUSİQİÇİLƏRİNİN VƏ TACİRLƏRİNİN SORAĞI TƏKCƏ İRANDAN VƏ TÜRKİYƏDƏN DEYİL, PARİS, LONDON, BERLİN KİMİ GƏLİŞMİŞ AVROPA PAYTAXTLARINDAN EŞİDİLMƏYƏ BAŞLADI

On səkkizinci əsrin ilk onilliklərində Nadir şah Əfşarın qəzəbindən Xorasandan qaçıb Şəki və Şirvanda gizlənən Cavanşirlər sülaləsi mənsubu sərkərdə Pənahəli xan sonradan Qarabağa keçir, tədricən bu yerlərin ağasına və 1747-ci ildə Nadir öləndən sonra isə ilk xanına çevrilir. Artıq həşəmətli xan, kiçik də olsa dövlətin başçısı Pənahəli xan elə bu dönəmdə gələcəkdə bir xalqın qürur yerinə və həm də faciəsinə çevriləcək füsunkar, eyni zamanda da alınmaz qala-şəhər inşa eləmək fikrinə düşür. Ətrafa hay salınır və tezliklə heyrətamiz, ən doğru, dedikcə münasib və gözəl məkan tapılır. Bu, indiyədək ətraf kəndlərin əkin və otlaq yeri kimi istifadə edilmiş yasamallıqayalıqlı nadir dağ zirvəsiydi. Bura həm çıxılması çox çətin alınmaz təbii qala, həm də heyranedici mənzərələri olan cənnətməkan idi!..

Əvvəllər qurucusunun adı ilə Pənahabad, sonralarsa qonşu kəndin adına uyğunlaşdırılaraq Şişə, Şüşə, və nəhayət də Şuşa adlandırılan bu şəhərin yaranma və təşəkkül dönəmləri eynilə simfoniyada olduğu kimi çox şən və sürətli keçib. Doğrudur, öz tarixində Məhəmməd şah Qacarla bağlı qanlı dönəmi atlatmalı olsa, sonralar xanlıq dövlət kimi mövcudiyyətini itirsə və artıq çar Rusiyasının ucqarı adlansa da Şuşa tez bir zamanda bənzərsiz qalaya çevrildi və... dünya şəhəri olmaq iddiasına da düşdü. İstedadlı və inadkar şuşalılar ciddi-ciddi bu iddialarına əməldə sahib çıxmaq yolunu tutdular. Beləcə tez bir zamanda Şuşa Azərbaycanın və Qafqazın musiqi, ədəbiyyat və ticarət mərkəzlərindən birinə döndü. Şuşa musiqiçilərinin və tacirlərinin sorağı təkcə İrandan və Türkiyədən deyil, Paris, London, Berlin kimi gəlişmiş Avropa paytaxtlarından eşidilməyə başladı.

Zaman ötdü, dövrlər, siyasi sistemlər dəyişdi, ancaq dəyişməyən iki şey oldu: Şuşanın gözəlliyi, cazibəsi, bir də göbələkyeyən rus şair-səfirinin Qarabağa mənhus hədiyyəsi olan İran və Van ermənilərinin Şuşanı özlərininki eləmək canatımı... Az qala iki əsrlik həmin Şuşa xəyalının nişanələrini bu şəhərin 8 may 1992-ci ildə baş vermiş işğalından yeddi ay əvvəl dəfələrlə şuşalılardan eşidəsi oldum. Ancaq gəlin tələsməyək. Məni, sıravi Azərbaycan jurnalistini Şuşaya gətirən yola ötəri də olsa nəzər salaq ki, oxucunun qavrayışında "boz ləkələr" qalmasın...

Hər şey 1991-ci ilin payızında Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində yeni nəfəsli, cəsarətli həftəlik informasiya proqramının yaradılması ilə başladı. Məni həmin proqrama Ağdam-Şuşa istiqaməti üzrə xüsusi müxbir keyfiyyətində işə dəvət elədilər. Dərhal razılaşdım. Əvvəla, ona görə ki, artıq xeyli vaxtdı parlament müxbirliyi ilə hərbi jurnalistliyi əvəzləyə-əvəzləyə həm Ali Sovetdə baş verən bir sıra tarixi hadisələri, o cümlədən də 18 oktyabr 1991-ci ildə Müstəqillik Aktının qəbul edildiyi parlament iclasının gedişini jurnalistlərin lojasından müşahidə etmiş, iyirmicə dəqiqə yaşı olan müstəqil dövlətin deputatlarından, necə deyərlər, "isti-isti" blis-müsahibələr götürmüş, tarixi kollektiv fotoşəkildə ön sırada yer almaq xoşbəxtliyinə tuş gəlmiş, Milli ordumuzun birinci batalyonunun Şəhidlər Xiyabanındakı andiçmə mərasimindən ilk telereportajı hazırlamış, digər tərəfdən də Qarabağın döyüşlər gedən əksər bölgələrindən xəbərlər, qəzet reportajları yazmışdım. Yəni ekstremal jurnalistika mənimçün yenilik deyildi və yaxşı başa düşürdüm ki, təhlükəli olsa da hadisələrin ilkin mənbəyi məhz sonralar birinci adlandırılacaq indiki Qarabaq müharibəsi cəbhələrindədir.

Və budur, artıq qısaca "AzTV" adlandırılan bu məşhur şirkətin "Xəbərlər" Baş redaksiyasının xüsusi müxbiri kimi bir səhər erkən Ağdam stansiyasında qatardan düşdüm. Ayağımın ağırlığındanmı idi, zəmanənin kəcrəftarlığıydımı, bilmirəm, amma o payız səhəri həm mənimçün, həm də ağdamlılar



Çox çətinliklə milis (indiki polis) maşını və silahlı müşayiətçilər tapıldı - Elman adlı yüyrək dilli bir milis serjantı (indiki çavuş) Xocalıya getmək istədiyimi eşidib mənimlə görüşdü, "ermənilərdən qorxmuram, istəyirsən lap Stepanakertə gedək", dedi. Təqribən bir saat sonra milis "UAZ"ında Elman və iki silahlı milis nəfəri ilə yarımmühasirə vəziyyətində olan Xocalı şəhərinə girdik, güllələnmiş "UAZ"ı və ağı deyən qadınların ağır qınaqları altında hüzr mərasimini çəkdik. Gedəndə və geri qayıdanda möhtəşəm Əsgəran qalasını lentə almaqdan da özümüzü saxlaya bilmədik. (Sonradan aydınlaşan iki məsələ yaddaşımda həmişəlik qaldı: birincisi, düşmən kəşfiyyatı yanılmışdı və ermənilərin qanına susadıqları xüsusi nümayəndə istirahət günü olduğundan maşında yox imiş, burada sürücüdən savayı

**ƏVVƏLLƏR QURUCUSUNUN ADI İLƏ PƏNAHABAD, SONRALARSA QONŞU KƏNDİN ADINA UYĞUNLAŞDIRILARAQ ŞİŞƏ, ŞÜŞƏ, VƏ NƏHAYƏTDƏ ŞUŞA ADLANDIRILAN BU ŞƏHƏRİN YARANMA VƏ TƏŞƏKKÜL DÖNƏMLƏRİ EYNİLƏ SİMFONİYADA OLDUĞU KİMİ ÇOX ŞƏN VƏ SÜRƏTLİ KEÇİB**

üçün qara gəlmişdi: belə ki, ötən gecə Müstəqillik aktına imza atan millət vəkillərindən ağdamlı Eldar Teymur oğlu Bağırov Bakıda Ali Sovetin iclasından qayıdarkən, 4-cü mikrorayonda bacısının yaşadığı evin qarşısında müəmmalı şəkildə qətlə yetirilmişdi!

Beləcə, qara gəlmiş növbəti Qarabağ səfərində Şuşaya uçacaq ilk helikopteri gözləyə-gözləyə çox hadisələrə şahid oldum: bütün Ağdamın, Qarabağın və Azərbaycanın ölümünə təəssüfləndiyi Eldar Bağırovun çisəkli bir gündə şəhər kənarındakı meşədə dəfn edilməsində iştirak elədim (Qarabağ müharibəsinin ən ünlü qəhrəmanlarından biri, cəmi 7 ay sonra minaya düşüb həlak olacaq və elə qardaşının yanında torpağa tapşırılacaq Milli qəhrəman Allahverdi Bağırovu Eldarı məzara qoyarkən ilk və son dəfə elə orada gördüm), bəzi döyüş mövqelərini gəzdim və qeydlər etdim, neçə-neçə yaralının son dəqiqələrini lentə alan operatorumuzun yanında oldum, 1 noyabrda duha erməni yaraqlılarının Əsgəranın içərisindən keçərkən rabitə şöbəsinin qarşısında Qarabağ üzrə xüsusi nümayəndə Viktor Polyaniçkonun xidməti UAZ-ını avtomatlardan atəşə tutduqlarını, Xocalı şəhər sakinləri — 1966-cı il təvəllüdlü sürücü Habil Abışov və yaşlı qadın Matan Hüseynovanın həlak olduqlarını, 1967-ci il doğumlu Elşad Abışovun isə ağır yaralı vəziyyətdə Ağdam rayon Mərkəzi xəstəxanasına gətirildiyini eşitdikdə təcili olaraq hadisə yerinə və oradan da Xocalıya getmək üçün bir neçə saat nəqliyyat axtardım. Çarəsizlikdən mehmanxananın ətrafını dolaşırdım. Binanın sağ divarında küçənin adı yazılmış lövhəni görcək biixtiyar güldüm, bütün əsəbim keçdi. "Məzəniz olsun, ağdamlılar, "prospekt" sözünə əcəb qarşılıq tapmısız" deyə, düşündüm. Çünki kiçik lövhədə belə yazılmışdı: "Lenin adına düz küçə".

yalnız Ağdam bazarına məhsul satmağa gedən yaşlı qadın və sürücünün yaxın qohumu varmış. İkincisi də, sonrakı hadisələrdən belə məlum oldu ki, biz bu məşhur yolla Xocalıya gedib geri qayıtmış son azərbaycanlılardanıqmış. Artıq doğma Ağdamını itirib məcburi köçkünə çevrilmiş Elmanı isə bir də Bakıda, metroda təsadüfən gördüm. Mülki paltarda idi, bir az sınsa da özünü tox tutmağa çalışırdı. Hal-əhvallaşıb bu dəfə həmişəlik ayrıldıq...)

Nəhayət, günlərin birində xoş xəbər verildi: Ağdamdakı həmkarlarımın və Bakıdakı redaktorumun səyləri nəticəsində Şuşaya uçan helikopterdə bizə də yer ayrılmışdı! Son ana qədər inana bilməsəm də xəyalım gerçək oldu. Bəxtimizə Şuşaya uçan növbəti helikopterin (o vaxtlar həmin uçaqlara rusların diliylə "vertolyot" deyirdik) trapına ayaq basmaq da yazılıbmış...

* * *

Şuşaya yetişcək ilk işimiz İcra Hakimiyyətinin başçısı Mikayıl Gözəlovla görüşmək oldu. Bizi dinlədi, sakit-səmimi söhbət elədi, "Qarabağ" mehmanxanasında qalmağımız üçün göstəriş verdi. İH binasından çıxıb birbaş mehmanxanaya yollandıq. Gərək ki, səkkizinci mərtəbədəki otaqlarımıza yerləşdik, bir qədər dincəldikdən sonra şəhərə çıxdıq. Bu, mənim əfsanəvi Şuşa ilə ilk tanışlığımdı...

Şuşaya ilk dəfə varid olan insan qəribə-xoş, mübhəm duyğularla dolub-daşır. Hər halda mən bu ovqatı yaşamaqdaydım. Qəribəsi də o idi ki, bu torpağa ayaq basdığım andan özümü sanki doğma Dərbənddəymiş kimi hiss edirdim. Daha doğrusu, bu qədim, unikal dağ şəhərinin milli koloritli məhəllələrini gəzə-gəzə gələcək telesüjetlərim üçün məkanlar axtarırkən aydınca dərk eləmişdim ki, Şuşada məni çulğalamış bu transvari haləti eynilə köhnə Dərbəndin

bircə dəfə də azmadığım qədim küçələrini gəzərkən yaşamışam! Material çox, lap çox idi. Burada telejurnalistika üçün həm əngin natura, həm də bitib-tükənməyən zəngin insan qalereyası mövcuddu. (Amma bəzən komik məqamlara da tuş gəlmək mümkündü. Bütün qala tipli şəhərlər kimi Şuşada da sakinlərin demək olar, hamısının ayaması vardı. Bunların arasında məzəli və hətta təhqiramiz çalarlılara da rast gəlinirdi. Məsələn, müsahibə üçün axtardığım bir müəllimin Şuşadakı ayamasını öyrəndikdə çəkiliş fikrindən daşınmaqdan başqa çarəm qalmamışdı.)

Bir səfərə burada nəzərdə tutduqlarımızın hamısını lentə ala bilməyəcəyimiz aşkar idi. Bakıdan tək gəlmişdim, AzTV-nin Ağdam bürosundan ezam edilmiş təcrübəli operatoru isə təcili işlər gözlədiyindən mənə görə ləngiyəcəyi xəyalın belə ötəsində olan məsələ idi yəqin ki. (Özümün çəkməyə macal tapdığım unikal kadrlar – Xan qızı şairə Xurşidbanu Natəvanın mülkü və onun ətrafındakı tarixi ərazilər, küçələrə döşəli qənbər daşlar, bir sözlə, Şuşanın tarixi mərkəzinin nadir görüntüləri olan videokassetlər sonradan iş masamdakı çəkməcədən müəmmalı şəkildə yoxa çıxdı...)

İndi, 28 ilin bu başından baxanda Şuşada keçirdiyim bir neçə gün mənə dopdolu və dərindən-dərin gəlir. O vaxt çox şeyi sadəlövhcəsinə "gələn dəfəyə qalsın" təsəllisi ilə ixtisara saldım – bir neçə dəfə önündən maşınla o tərəf-bu tərəfə keçsəm də nə Vaqifin məqbərəsini ziyarət elədim, nə Yuxarı Gövhərağa məscidinin içərisinə baxdım, nə də uzaqdan çox əzəmətli görünən alban kilsəsində oldum. (Amma kilsənin yaxınlığındakı çoxmərtəbəli binanın birinci qatındakı toya qatılmaq dəvətini qəbul etməyə bilmədik. Bu, Şuşada iştirak etdiyim ilk və son toy idi. Sonradan belə məlum oldu ki, həm də bu, şəhərdə baş tutmuş axırıncı toylardan biri imiş...)

yüksək nöqtəsində televiziya retranslyasiya qülləsinin quraşdırılaraq fəaliyyətə başlamasına rəhbərlik eləmiş, buradan ilk verilişləri efirə vermiş, xülasə, Şuşa televiziyasının mənəvi atası, banisi olmuşdu. Onu bu şəhərdə hamı tanıyır və çox sevirdi. Emosiyalarını büruzə verməyi elə də xoşlamayan ustad telejurnalist bu şəhəri və onun sakinlərini saf məhəbbətlə sevdiyini gizlədə bilmirdi. Əslində buna heç çalışmırdı da. Maşınla şəhəri dolaşdıqca bizə, daha doğrusu, buraya ilk gəlişi olan mənə qayğıkeşliklə bələdçilik edir, məlumatlandırırdı: "Milis idarəsinin yanındakı o böyük mülk babamın olub, sonradan ora ermənilər yerləşmişdi. Burada da gözəl bina vardı, indi yoxdur" və s... (Bir hadisə də heç xatirimdən çıxmır: sonradan Nadir müəllimlə "Bakı soveti" (indiki "İçərişəhər") metro stansiyasının arxasındakı avtobus dayanacağında rastlaşıb təzəcə hal-əhval tutmağa başlamışdıq ki, bir şuşalı qadın ona yaxınlaşdı və salam

**BÜTÜN QALA TİPLİ ŞƏHƏRLƏR KİMİ ŞUŞADA DA SAKİNLƏRİN DEMƏK OLAR, HAMISININ AYAMASI VARDI. BUNLARIN ARASINDA MƏZƏLİ VƏ HƏTTA TƏHQİRAMİZ ÇALARLILARA DA RAST GƏLİNİRDİ**



AzTV-nin təcrübəli əməkdaşı mərhum jurnalist Nadir Abdullayev Laçından doğma şəhəri Şuşaya gəlib bizi də sevindirmişdi. Sonrakı günlərdə ona yoldaşlıq edərək süjet çəkmək üçün çox maraqlı ünvanda olduq, təəssüratlarımızı zənginləşdirdik, indi "aşıq Yadigar" kimi bütün Azərbaycanda geniş tanınan istedadlı aktyor Yadigar Muradovun və həmkarlarının çalışdığı Şuşa musiqili komediya teatrının məşqlərini seyr eləmək imkanı da əldə etdik...

Nadir müəllim əslən şuşalı idi. Şəhərin ən

verən kimi qayıtdı ki: "Şuşanı da verdiniz də..." Nadir müəllim bu haqsız hücumdan çox əsəbiləşdi: "Mən Şuşa vermişəm? Jurnalistəm, bacardığımı əsirgəməmişəm, məni niyə günahlandırırsız...")

Şuşanı axşamdan keçənədək gəzib, neçə yerdə dayanıb müsafir olurduq. Bizi qonaq da çağırmış, əsl şuşalı qonaqpərvərliyi nümayiş etdirmişdilər. Ümumiyyətlə, jurnalistlərə bir qədər laqeyd ağdamlılardan fərqli olaraq burada onlara xüsusi ehtiram vardı: şuşalılar çox gözəl anlayırdılar ki, bu qələm və kamera əsgərləri də hərbi ab-hava ilə yaşayan şəhərə az qala silahlı əsgərlər qədər gərəklidirlər. Bu diqqəti hər addımda hiss edir və nə dərəcədə vacib iş gördüyünü bir daha dərk edirdin. Bu isə məsuliyyəti və çalışma şövqünü artırırdı...

* * *

Şuşanın məşhur onmərtəbəli "Qarabağ" mehmanxanası şəhərin ən yüksək binasıdır. Üstəlik də hündür təpədə qərar tutub. Burada məzuniyyətə gəlmiş bir neçə hərbçi qalır

və 13 ailədən ibarət 52 nəfər qaçqın yaşayır. Bizə yuxarı qatlardan birində hərəmizə ayrıca otaq verilib. Mərtəbədə başqa heç kim yoxdur.

Adətim üzrə səhər lap tezdən dururam. Əvvəlcə qarşıdakı qapısı açıq boş nömrəyə keçib Kirs dağına, əsrarəngiz Cıdır düzünə, sol əldə, Şuşikənd sarıda olan dağlara göz dolusu baxır, gördüklərimi yaddaşıma həkk eləməyə çalışıram. Yenə otağa qayıdır, Xankəndinə baxan eyvana çıxıram. Ruhumuza bu qədər yaxın olsa da vilayətin mərkəzi şəhərinin özü buradan xeyli uzaqdadır. Gözlərimi oradan ayırıb aşağı, binanın qarşısındakı bağçaya baxır və... donub qalıram: aman Allah, bu nədir?! Gözlərimin önündə nəhəng bir Qriqoryan xaçı sərilib qalıb!! Görəsən məndən əvvəl bunun fərqinə varan olubmu? Axı indiyədək nə qədər insan bu eyvannlardan aşağı baxıb... Binanın memarı azərbaycanlı ola bilər, amma əvvəllər yerində park salınmış və Leninə heykəl qoyulmuş bu bağçanın yeni landşaft memarlığında mütləq "erməni barmağı" var. Yoxsa bunu necə izah etmək olar ki, mehmanxananın önündəki dar-uzun bağçanın tən ortası ilə xristian xaçının vertikal oxunu andıran hovuz uzanır. Həmin "arx-hovuzun" hər iki başı fəvvarəli altıbucaqlı ilə nəhayətlənir. Oxucu sual edə bilər ki, bəs "xaçın" köndələn hissəsi haradadır? "Memar" bunu da eyni hiyləgərliklə düşünüb. Belə ki, əvvəla, hovuzun düz ortasında yenə bir altıbucaqlı hovuz imitasiyası verilib və üstəlik, onun bərabərində hər iki tərəfdən bağçada dərin yarımdairəvi skamyalar layihələndirilib, yaşıl kollar əkilib. Beləliklə, yarımücərrəd-yarıgerçək və yalnız hündürdən fərq edilə biləcək gizli rəmz-niyyət ərsəyə gətirilib...



Ümumiyyətlə, Şuşada keçirdiyim bir neçə gündə şəhər sakinlərinin dilindən ermənilərlə bağlı çox şeylər eşitdim. Məsələn, xatırlayıram ki, ermənilər hələ sovet dönəmində şuşalılara dönə-dönə yarızarafat-yarıciddi eşitdirirmişlər: "Şuşanı bizə verin, buranı Parisə çevirək, aşağıdan (Xankəndindən) kanat yolu çəkək". Qorxub-çəkinmədən, dim-dik üzə deyirmişlər. Çünki zaman keçdikcə Şuşada artıb-çoxalıblarmış. (Burada utanmaqdan danışmağın heç yeri deyil: hay hara, həya hara...). Anlayacağınız, bu alınmaz şəhərin real ələ keçirilmə niyyəti əslində elə o dinc dönəmdən su içirmiş. Müharibə qızışdıqca aşağıdan atanlara "fənər tutan" ermənizadələr də getdikcə çoxalırmış. Şuşalıların bu naxələf siqnalçı dığalar haqqında qəzəbli deyintiləri ta işğalın özünədək davam elədi, amma çifayda...

Mehmanxanadan adamsız küçəyə çıxıram. Sağa dönüb məscidin qarşısındakı meydana sarı yönəlirəm. Sağ əldəki bazarda təkəmseyrək satıcılar gözə dəyir. (Heç demə, bir ildən də az zaman ötəcək və bu yerlər xarabazara çevriləcəkmiş. Nə yaxşı ki, indilik bunu bilmirəm.) Dolaşdıqca dolaşır, bu bənzərsiz məskənin elə bu cür koloritini ruhuma köçürürəm. Ancaq təkcə ruhi qida yetməz. Normalda bu vaxtadək çoxdan pirbab səhər yeməyi nuş eləmiş oluram axı. Bir qucaq göz və qəlb təəssüratı ilə geri qayıdanda bu dəfə yenə sağ ələ düşən çoxmərtəbəli binanın birinci qatındakı yeməkxanaya yönəlirəm. (Qismətdə Şuşa xaşı yemək də varmış. Nə yazıq ki, o da ilk və son oldu... )

Şuşadan çəkdiyimiz telesüjetlərin ana xətti nisgil, ata xətti həsrət idi, deyə bilərəm. Lakin bir süjeti heç unuda bilmirəm. Onun ruhuna büsbütün qəzəb hopmuşdu: Stepanakertdən qaçqın düşüb Şuşaya pənah gətirmiş bəlkə də ilk qarabağlı məcburi köçkünlərin yaşadıqları yataqxanaya gəlmişik. "Dərdli deyingən olar", deyiblər. Ancaq onların çoxu deyinmir, qeyz püskürürdülər. Aşağıdakı artıq əlçatmaz olan şəhəri göstərib onları evlərindən köçürmüş azərbaycanlı məmuru dişiqanlı qarğıyan xankəndili qadının siması indi də gözlərimin önündədir. Bundan bir qədər sonra – 20 noyabrda Qarakənddə qara güdaza gedən helikopterdə Bakı rayonlarından birinin rəhbəri vəzifəsində işləmiş həmin məmurun da olduğunu eşidəndə sövq-təbii qaçqın qadını və onun tükürpədən qarğışlarını xatırladım...

**DÜNƏNİN GƏLMƏLƏRİ HƏLƏ SOVET DÖNƏMİNDƏ ŞUŞALILARA DÖNƏ-DÖNƏ YARIZARAFAT-YARICİDDİ EŞİTDİRİRMİŞLƏR: "ŞUŞANI BİZƏ VERİN, BURANI PARİSƏ ÇEVİRƏK, AŞAĞIDAN KANAT YOLU ÇƏKƏK". QORXUB-ÇƏKİNMƏDƏN, DİM-DİK ÜZƏ DEYİRMİŞLƏR**

***ŞUŞALILAR ÇOX GÖZƏL ANLAYIRDILAR Kİ, QƏLƏM VƏ KAMERA ƏSGƏRLƏRİ DƏ HƏRBİ AB-HAVA İLƏ YAŞAYAN ŞƏHƏRƏ AZ QALA SİLAHLI HƏRBÇİLƏR QƏDƏR GƏRƏKLİDİRLƏR. BU DİQQƏTİ HƏR ADDIMDA HİSS EDİRDİK***



Qarakənddəki hadisə yerindən mənə də "xəbər" gəlmişdi: AzTV-nin oraya ezam edilmiş məsul əməkdaşını görən mərhum Mikayıl Gözəlov məndən ona şikayət eləmiş, "təbiət abidəsi olan Cıdır düzü vertolyot meydançasına çevrilib" qeydini öz ünvanına tənqid kimi qəbul etdiyindən narazılığını bildirmişdi. Əslində başçını anlamaq olardı: axı Şuşada Cıdır düzündən savayı bunca münasib yasamal tapmaq çox çətindi. Üstəlik də buranı ermənilərin topu-tüfəngi tutmurdu. Lakin, neyləyəsən, köhlən atların yarış yeri, nəmər çövlanlığı olan, elmi ədəbiyyatda Qafqaz daş səhləri adlanan xarı bülbüllü bu gözəlliyin necə adiləşdiyini görüb susmaq da əldə deyildi.

Cıdır düzü ilə bağlı daha bir xatirəmi ilk baxışda divanəlik saymaq olar: eşitmişdim ki, Mir Möhsün Nəvvabın məzarı buradakı qəbiristanlığın Cıdır düzü civarındadır, bizi Ağdama aparacaq helikopter artıq İbrahim kahasının tuşundaykən birdən irəli cumdum, sanki əvvəldən tanıyırammış kimi o pirin qəbrini tapdım. Ruhuna dua oxudum. Məşhur şair və ictimai xadim olan seyidin həm baş və həm də sinə daşı zoğalı rəngdə mərmərdəndi. Bu məzarlıqdakı məşhur isimlərdən bəhs edəcək süjetimin baş tutmamasına təəssüflənə-təəssüflənə geri qaçdım. Bu yerlərə bir daha və bir daha dönmək diləyi ilə yenə trapa ayaq basdım, illüminatorun dibində oturub gözümdən uzaqlaşdıqca qəlbimə daha da yaxınlaşan şəhəri ayrılığın ayrılmaz yoldaşı olan kədər hissi ilə seyr elədim...

* * *

Şuşalı qeydlərimin əvvəlində əslən şahdağlı – Qubanın Qrız kəndindən olan şair-jurnalist Murad Qudyalçaylının "Şuşa simfoniyası" poemasından söz açmışdım. Murad müəllim Şuşa ağrısı ilə qələmə aldığı bu poemanın çap variantını görmədən dünyasını dəyişdi. Və günlərin birində ixtiyar zövcəsi onun indi demək olar ki, tam itib-batmış zəngin arxivindən "Şuşa simfoniyası"nın və daha bir poemanın əlyazmasını götürüb Bakıya, onun dostu və tələbə yoldaşı, Qubanın Cimi kəndində doğulub böyümüş istedadlı şair Ələkbər Salahzadənin yanına gəlir, bu əsərləri çap etdirməsini istəyir. Ələkbər müəllim də qəzetinin incə adı olan bir tanışına etimad göstərib əlyazmaları ona verir. Bu əhvalatın üstündən xeyli zaman keçir. Və günlərin birində poemaların taleyi ilə maraqlanan dünya görmüş şair və redaktoru özü də közərən şair olan gənc tanışı gözlənilməz cavabı, daha doğrusu əks-sualı ilə çaşdırır: "Hansı poemalar, siz mənə heç nə verməmisiz axı..." Beləcə "Şuşa simfoniyası"nın əlyazması da bir növ, elə Şuşanın özünün taleyini yaşamış oldu – ünümüz yetməsə də bir vaxt yenidən tapacağımıza olan ümidlə O GÜNÜ gözləməkdən başqa əlimizdən hələlik heç nə gəlmir.

Bütün bunları mənə bir vaxtlar "Gəlin, Murad Qudyalçaylının yeni kitabını buraxaq" təklifi ilə görüşdüyüm "Qobustan" sənət toplusunun baş redaktoru Ələkbər müəllimin özü danışmışdı. Jurnalın Azərbaycan Yazıçılar Birliyinin binasında yerləşən redaksiyasında Murad müəllim və onun gələcək kitabından xeyli danışdıq. Kitabın quruluşu, bölmələri, burada gedəcək şeir və poemalar barədə fikir mübadilələri elədik. Amma sonda bir ritorik suala dirənib qaldıq: Bu hadisədən sonra kim inanıb əlindən əlyazma verərdi ki?..

Həmin əsərlər əgər hələ Mirzə Şəfinin əşarının taleyini yaşamayıbsa, yəqin ki, yaşayacaq. Axı indi müəllif də, onun zövcəsi də, şairin dostu da şəhadət vermək iqtidarında deyillər! Amma Mixail Bulqakov demiş, əlyazmalar yanmır. Vətən də qürbət olmur! Qəti əminəm ki, "Şuşa simfoniyası" da, onun qəhrəmanı olan sevgili şəhər də tez bir zamanda özünün becid-şaqraq Presto-sunun sədalarıyla süslənəcək, tarixi ədalət və Allahin əzəli nizamı yenidən bərqərar olacaq. Və biz Şuşada bəstəkar Azər Dadaşovun "Şuşa" adlı 11-ci simfoniyasının patetikasına dalacaq, Murad Qudyalçaylının "Şuşa simfoniyası"nın poetik cazibəsinə də düşəcəyik.

Bir şərtlə ki, yalnız dualarımızın gücünə arxayın olub da qolumuzu sallayıb oturmayaq, əlimizi uca Şuşanın azadlıq daşlarının altına qoyaq!.. ❖

**Şövkət Səlimov**
**jurnalist**